AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI

Bakı şəhəri **№390/7** **16 oktyabr 2026-cı il**

2026-cı ilin 9 ayı ərzində səlahiyyətli dövlət orqanlarının sifarişi əsasında həyata keçirilən xüsusi auditlərin icrası vəziyyətinə dair Hesabatın qəbul edilməsi barədə

Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı il üzrə iş planının 1.3-cü "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə auditlərin aparılması" bəndinə uyğun olaraq Palatanın Xüsusi Auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, Daxili Nəzarət və Forenzik Təhlillər idarəsi (Ə.Aslanov, B.Məmmədli) tərəfindən hazırlanmış "2026-cı ilin 9 ayı ərzində səlahiyyətli dövlət orqanlarının sifarişi əsasında həyata keçirilən xüsusi auditlərin icrası vəziyyətinə dair Hesabat"ı müzakirə edərək Auditorlar Palatasının Şurası

QƏRARA ALIR:

1. "2026-cı ilin 9 ayı ərzində səlahiyyətli dövlət orqanlarının sifarişi əsasında həyata keçirilən xüsusi auditlərin icrası vəziyyətinə dair Hesabat" qəbul olunsun (əlavə olunur).

2. Xüsusi Auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, Daxili Nəzarət və Forenzik Təhlillər idarəsinə (Ə.Aslanov) tapşırılsın ki:

2.1. Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlər üzrə icrası davam etdirilən və gecikdirilmiş işlərin 2026-cı ilin sonunadək başa çatdırılması üçün zəruri tədbirlər görülsün;

2.2. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2017-ci il 25 avqust tarixli 289/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara dair Qayda"nın mövcud qanunvericiliyə və günün tələblərinə uyğunlaşdırılmaqla yeni redaksiyası 2027-ci ilin əvvəlindən tətbiq edilməsi məqsədilə 2026-cı ilin sonunadək hazırlanıb təsdiq edilməsi məqsədilə Palatanın Şurasının müzakirəsinə təqdim olunsun.

2.3. səlahiyyətli dövlət orqanlarının sifarişi əsasında həyata keçirilən xüsusi auditlərin icrasında iştirak edən auditorlara xüsusi auditlərin aparılması zamanı qarşılaşdıqları problemləri və həmin problemlərin həlli ilə bağlı təkliflərini hazırlayaraq bir ay müddətində Palataya təqdim etmələrinə dair müraciətin göndərilməsi təmin edilsin.

3. Auditin transformasiyası və operativ tənzimləmə idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, bir həftə müddətində bu qərarın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

Şuranın sədri **Vahid Novruzov**